**Azərbaycan Respublikası Prezidentinin 2006-cı il 18 aprel tarixli 391 nömrəli Fərmanı ilə təsdiq edilmiş “Azərbaycan Respublikasının Ədliyyə Nazirliyi haqqında Əsasnamə”də dəyişiklik edilməsi barədə**

AZƏRBAYCAN RESPUBLİKASI PREZİDENTİNİN FƏRMANI

“Sahibkarlıq sahəsində aparılan yoxlamaların vahid məlumat reyestrinin forması və aparılması qaydası haqqında Əsasnamə”nin təsdiq edilməsi barədə” Azərbaycan Respublikası Prezidentinin 2011-ci il 15 fevral tarixli 383 nömrəli Fərmanının 2.3.2-ci yarımbəndinin icrasını təmin etmək məqsədi ilə **qərara alıram:**

Azərbaycan Respublikası Prezidentinin 2006-cı il 18 aprel tarixli 391 nömrəli Fərmanı (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2006, 4, maddə 323, 12, maddə 1034; 2007, 11, maddə 1105, 12, maddə 1246; 2009, 7, maddə 533, 8, maddə 627, 10, maddə 773, 12, maddələr 983, 988; 2010, 2, maddə 83, 4, maddə 292, 11, maddə 966; 2011, 1, maddə 18, 2, maddə 85, 4, maddə 281, 6, maddə 497) ilə təsdiq edilmiş “Azərbaycan Respublikasının Ədliyyə Nazirliyi haqqında Əsasnamə”də aşağıdakı dəyişikliklər edilsin:

1. Aşağıdakı məzmunda 8.7-1-ci bənd əlavə edilsin:

“8.7-1. sahibkarlıq sahəsində aparılan yoxlamaların vahid məlumat reyestrini aparır;”.

2. Aşağıdakı məzmunda 9.12-1-ci bənd əlavə edilsin:

“9.12-1. sahibkarlıq sahəsində aparılan yoxlamaların vahid məlumat reyestrini aparmaq;”.

3. Aşağıdakı məzmunda 10.6-1-ci bənd əlavə edilsin:

“10.6-1. sahibkarlıq sahəsində aparılan yoxlamaların vahid məlumat reyestrində yoxlamaların qeydiyyatını həyata keçirmək;”.

**İlham ƏLİYEV,**
**Azərbaycan Respublikasının Prezidenti**

Bakı şəhəri, 26 oktyabr 2011-ci il
510